# Moskva və bütün Rusiyanın Patriarxı Kirillin

**Moskva və bütün Rusiyanın Patriarxı Kirillin**

**baş keşişlərə, keşişlərə, rahiblərə və Rusiya Pravoslav Kilsəsinin bütün**

**sadiq övladlarına ünvanladığı Milad bayramı münasibətilə müraciəti**

**Müqəddəs baş keşişlər, möhtərəm atalar, dürüst rahiblər, əziz qardaş və bacılar!**

Bu nurlu gecədə biz birlikdə dünyanm öz Xilaskarını tapması sevincini təkrar yaşayırıq. Yenidən Vifleyem mağarasında Allahın Canlı Oğlunu gözümüzün önünə gətiririk. Qəlblərimizdə Yaradana və Bağışlayana tərif oxuyan mələklərin səsini eşidirik: *"Göydəki Allaha, yer üzündə sülhə, insanlarda mərhəmətə həmd olsun"* (Lk. 2, 14).

Göy qüvvələrinin mədhiyyəsini dinlədikcə biz dərk edirik ki, İsa Peyğəmbərin doğulduğu gün, yəni Milad günü zamandan kənar mənaya malikdir və hər bir insanın taleyinə birbaşa təsir edir. Hətta Xilaskarın qəhrəmanlığı haqqmda hələ heç nə bilməyən insan indi həmin Həqiqəti dərk edə bilər və Allahın övladına çevrilərək əbədi həyata qovuşa bilər. Milad günü bizə özümüz haqda həqiqəti bildirir və həmin həqiqəti dərk etməyə kömək edir.

Xatırladaq ki, Yaradan ilk insanı kamil, *Allahın simasında, ona bənzəyən* (Tövrat, Varlıq, 1, 26) yaratmışdır, lakin Adəm əmrə tabe olmayıb Yaradanın onun haqqında niyyətini təhrif etmişdir. Allahla canlı ünsiyyətdən məhrum olmuş bəşəriyyət getdikcə daha çox günahlara və xudpəsəndliyə qərq olurdu. Bu zaman Allah yaratdığı varlığı sevdiyindən və onu xilas etmək istədiyindən dünyaya Bircə Oğlunu göndərir, o, insan təbiətinin bütövlüyünü bərpa edir və Yeni Adəm olur. İsa Peyğəmbər bizə insan haqqında ilahi niyyətə uyğun olan həyat tərzini göstərdi. Bu nümunə bizə həm yer üzündə, həm də əbədiyyətdə düz yoldan azmamağa və dolğun həyata gətirib çıxardan yeganə doğru istiqaməti seçməyə kömək edən etibarlı yol göstərəndir.

Biz Allahın çağırışlarına cavab veririksə, deməli, bu xilasedici yolla gedirik. Bizə ünvanlanmış bu cür müraciətlərdən biri apostol Pavelin nəsihətnaməsində göstərilib: "İlahi mahiyyəti olan bədənlərinizdə və qəlblərinizdə Allahı mədh edin" (I Kor., 6, 20). Bu o deməkdir ki, biz Allaha yalnız öz dualarımızla və dini nəğmələrimizlə deyil, həm də yaxınlarımızın, xalqımızm yaxşılığı, Kilsə naminə edilən xeyirxah əməllərimizlə də tərif oxuyuruq.

Bu cür zəhmət İsa naminə sevinc gətirən zəhmətdir ki, ətraf aləmi və özümüzü yaxşılığa doğru real dəyişdirir. İnsanlar məcburiyyətdən və mənfəət naminə deyil səmimi xeyirxah və faydalı iş görmək arzusu ilə hərəkət edərək həmrəy olur. Bununla biz birlikdə Yaradanımıza xidmət edir, Onun iradəsini həyata keçiririk. "Liturgiya" yunan dilindən "ümumi iş" kimi tərcümə olunur. Dünya və insan haqqında İlahi niyyətin həyata keçirilməsi və bununla da bizim Yaradana dua və şükür etməyimiz üçün bütün həyatımız Liturgiya, ümumi dua və ümumi iş olmalıdır. Bu bizdən öz qəlbində hələ Allahı tapmayan, lakin İncil cadugərləri kimi Ona doğru gedən qardaş və bacılarımızla həmrəy olmağımızı tələb edir.

Ötən il Rusiyada və tarixi Rusiyanın bir sıra digər ölkələrində yanğınlar, quraqlıqlar və sellər bizə bir daha fəlakətlərə və bədbəxtliklərə qalib gəlmək üçün qüvvələrimizin birləşdirilməsinin zəruriliyini göstərdi. Onlar bir daha bizə xristian borcunu bizim yadımıza saldı - fıkirlərimizin, milliyyətimizin və sosial vəziyyətimizin fərqinə varmadan. İsti yay aylarında bir çox insanlar tanımadıqları və bəlkə də gələcəkdə heç vaxt görməyəcəkləri insanlarla öz qüvvələrini, zamanlarını və var-dövlətini bölüşürdü. Onlar bunu nə üçün edirdilər? Pis vəziyyətdə olanlara, yoxsulluqdan əziyyət çəkənlərə və yardıma ehtiyacı olanlara öz köməklərini göstərmək üçün.

İctimai həmrəylik, ümumi məqsədlərə nail olmaq üçün birgə əmək sərfi xudbinliyə qalib gəlmədən, özünü xeyirxahlığa yönəltmədən və yalnız öz ehtiyac və maraqlarına istiqamətlənməkdən imtina etmədən mümkün deyil. Əsl "ruh tamlığının" əsasında (Yef. 4,3) bizə Xilaskarımız tərəfindən nəsihət edilmiş sevgi qanunu mövcuddur. Millətin birləşməsi yalnız sınaq dəqiqələri ilə məhdudlaşa bilməz. O, bizim milli şüurumuzun və həyatımızın ayrılmaz hissəsinə çevrilməlidir.

Kilsə birliyinin gücünü mən Rusiyanın, Ukraynanm, Qazaxıstanın və Azərbaycanın yeparxiyalarına çoxsaylı səfərlərim zamanı aydın şəkildə hiss edirdim. Hər yerdə mən arxipastırların, ruhanilərin, rahiblərin və adi insanların Pravoslavlıq uğrunda zəhmət çəkmək, prixod, kilsə və yeparxiya fəaliyyətini mükəmməlləşdirmək hazırhğını görürdüm. Bu birlik və birgə fəaliyyət ruhunda kilsə həyatının müvəffəqiyyətli inkişafına ümid yaradır.

Hörmətli arxipastırlar, möhtərəm ruhanilər, sakinlər, bacı və qardaşlar, sevinc dolu ürəklə sizi Milad bayramı və Təzə il münasibətilə təbrik edirəm!

Sizlərə dua edirəm və Allahın hökmünün qeyrətli icraçıları, Xilaskarımıza ruhi sovqatlar gətirənlərdən olmağı arzu edirəm ki Onun adı həmişə şöhrətləndirsin. Amin.

**MOSKVA VƏ BÜTÜN RUSİYANIN PATRİARXI**

**MİLAD BAYRAMI, 2010-cu/2011-ci il**

---

Source: https://mospat.ru/en/news/56202/